**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# CƏMİYYƏTİN SİYASİ HƏYATINDA DƏYƏRLƏRİN ROLU

İxtisas: 7207.01-Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə

İddiaçı**:** **Kamran Rövşən oğlu Vəlizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI-2026**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Fəlsəfə və Sosial iş" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Fəlsəfə elmləri doktoru, professor
**Məmməd Hüseyn oğlu Rzayev**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Əbülhəsən Fərhad oğlu Abbasov**

Fəlsəfə elmləri doktoru, dosent
**Müslüm Hətəm oğlu Nəzərov**

Fəlsəfə üzrə fəlsəfə doktoru
**Nəzakət Xanlar qızı Kərimova**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: Fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: Fəlsəfə elmləri doktoru, professor
**Rəna Rza qızı Mirzəzadə**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə fəlsəfi tədqiqatlarda dəyərlər anlayışına münasibət müxtəlif aspektlərdə bildirilir, fərqli məqamlar təqdim edilir.Cəmiyyətin siyasi həyatında dəyərlərin rolunun tədqiq edilməsi də aktuallıq kəsb edən məsələlərdəndir. Hər bir cəmiyyətdə dəyərlər fərdlərin davranışlarını tənzimləyir və sosial-siyasi nizamın qorunmasına kömək edir.

Dəyərlər cəmiyyətin, toplumun, ayrı-ayrı fərdlərin, qrupların ədalətli, doğru hesab etdiyi davranış, qayda, norma və prinsiplərdir. Bu prinsiplərə azadlığı, bərabərliyi,ədaləti, qanunun aliliyi, insan hüququnu, milli-mənəvi və dini dəyərləri, humanizmi, vətənpərvərliyi və s. aid etmək olar. Bu dəyərlər siyasi həyata siyasi qərarların formalaşması, qanunvericilik və hüquq sisteminin quruculuğu, siyasi iştirak, siyasi legitimlik, siyasi münaqişə və barışıq zamanı təsir göstərir.

Cəmiyyətdə formalaşan dəyərlər sistemi qloballaşma, rəqəmsal transformasiya ,texnoloji inkişaf, siyasi islahatlar və sosial medianın təsiri ilə zəifləyə, güclənə və yaxud yeniləri ilə dəyişilə bilər. Həmin prosesin gedişatında sosial fəlsəfə cəmiyyətin dəyərlər sistemini dərindən təhlil edərək, onun stabilliyini və davamlılığını təmin etməyə səy göstərir.

XX əsrin sonlarında baş verən dərin transfomasiya prosesləri, siyasi quruluşların dəyişməsi, milli azadlıq hərəkatlarının artması, yeni müstəqil dövlətlərin yaranması dəyərlər sistemini dəyişdirdiyi kimi, dəyərlər də öz növbəsində siyasi həyata, siyasi münasibətlərə ciddi təsir etdi. Artıq əvvəlki rəsmi dəyərlər sistemi müasir reallıqların tələblərinə cavab vermədi. Yeni şəraitdə dəyərlər sistemi mədəni,əxlaqi, milli, siyasi həyata kompleks şəkildə nüfuz etdi, dəyərlərin yenidən qiymətləndirilməsini labüd etdi. Nəticədə cəmiyyətin ümumi dəyərlər sisteminin dəyişilməsi baş verdi. Bu mənada dəyərlərin ictimai-siyasi və mədəni həyatdakı rolunun tədqiqi, onların formalaşması və dəyişilməsinə təsir edən amillərin araşdırılması sosial fəlsəfənin tədqiqat obyektlərindən biri kimi daha da

genişləndi. Vətəndaşların ölkənin siyasi həyatında fəal iştirakı məhz siyasi şüurun, siyasi mədəniyyətin inkişafı, siyasi münasibətlərin dərinləşməsi ilə bağlıdır. Siyasi mədəniyyətin inkişafı isə vətəndaşların mənəvi və əxlaqi dəyərlərə əsaslanan qərar qəbul-etmə qabilliyyətini, vərdiş və bacarıqlarını artırır.

Beləliklə, sosial fəlsəfənin kateqorial aparatından olan dəyərlər anlayışının siyasi həyata təsirinin tədqiqi cəmiyyətin mənəvi və siyasi inkişafının dərk edilməsi, düzgün istiqamətləndirilməsi üçün aktuallıq kəsb edir.

Siyasi dəyərlər cəmiyyətin sabitliyinə və davamlılığına stimul verir. Belə ki, bu dəyərlər cəmiyyətdə siyasi mədəniyyəti formalaşdırır, vətəndaşların bir-birinə etimadını artırır, ictimai sabitliyin təminatına təkan verir, siyasi fəallığı və siyasi davranışı çərçivəyə salaraq onun konturlarını cızır. Siyasi dəyərlər siyasi mədəniyyətin, ictimai rəyin, şəxsiyyətlərin münasibətlərinin təməlində durmaqla cəmiyyətdə davamlı inkişafın təmin olunmasında mühüm rola malikdir. Siyasi dəyərlər dövlət qurumlarına, qanunlara hörməti səciyyələndirir, cəmiyyətdə qarşılıqlı etimadı gücləndirir ki, bu da sosial sabitliyin bərqərarını şərtləndirir, birgəyaşayış təminatlarını möhkəmləndirir. Siyasi dəyərlərdəki uyğunsuzluq isə cəmiyyətdə durğunluğa, qarşıdurmalara, bölün-məyə səbəb ola bilər. Dəyərlər sisteminin fəlsəfi-siyasi təhlili onlara yanaşmaları dərk etməyə və təsnifatı müəyyən etməyə imkan yaradır.

Müasir Azərbaycan modernləşmə prosesini, siyasi həyatın demokratikləşməsini, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu həyata keçirərkən siyasi aksiologiya ilə yanaşı, milli dəyərlərə də əsaslanır. Bu cəhətdən dövlət başçısı İlham Əliyevin fikirləri aktuallıq və əhəmiyyəti ilə diqqəti cəlb edir: *"*Belə ki, Prezident milli dəyərləri Azərbaycan xalqının iradəsi ilə bağlayaraq qeyd edir ki, bizim bu istiqamətdə böyük təcrübəmiz vardır və ölkədə bu yöndə müasir standartlara uyğun siyasət aparılır*"*.[1] Dəyərlər milli təhlükəsizlik, milli maraqlar və

---

[1]Əliyev İ.H. Azərbaycanda qanunun aliliyi başlıca şərtdir//- Bakı:Dirçəliş-XXI əsr, -2005, Xüsusi buraxılış. -s.87.

məqsədlərin qarşılıqlı münasibətlərində, şəxsiyyət, cəmiyyət, dövlət, millət və xalqın inkişafında sosial-siyasi, etnik, mənəvi-etik, milli-dini, mədəni ənənələr amili kimi çıxış edir. Azərbaycan Respublikasının milli təhlükəsizliyi və milli maraqları fundamental dəyər və məqsədlərin məcmusundan ibarət olub xalqın vahidliyinin, təhlükəsizliyinin, qlobal, regional təhlükəsizlik şəraitində mövcudluğunun, azərbaycançılığın, dünya azərbaycanlılarının bölüşdüyü milli spesifik dəyərlərin, ümumdünya demokratik dəyərlərə inteqrasiya olunaraq, milli dövlətçilik ənənələrinə, milli-mənəvi irsinə əsaslanaraq demokratik hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğunun, Azərbaycan xalqının mədəni-əxlaqi, milli dəyərlər sisteminin qorunmasının, həmçinin ümumbəşəri dəyərlərlə zənginləşməsinin, milli identikliyinin, milli kimliyinin, milli şüurunun, özünüdərkinin inkişafını təmin etməkdən ibarətdir. Milli dəyərlərin əsas yaradıcısı və qurucusu olan Azərbaycan xalqı milli təhlükəsizliyin əsas obyekti və onun sistemi olaraq parametrlərinin müəyyən edicisidir. Azərbaycan vətəndaşı sistemyaradıcı, milli dövlətimiz isə milli təhlükəsizliyimizin daxili və xarici qarşılıqlı əlaqəsinin tənzimləyicisidir.

Vətən müharibəsində Türkiyə Respublikasının Azərbaycana güclü mənəvi dəstəyi siyasi dəyərlərə mühüm təsir göstərdi, əlaqələri genişləndirdi, bağlılığı dərinləşləşdirdi. Bu dəstək regional güc balansını dəyişdirdi, "bir millət, iki dövlət" şüarı daha da möhkəmlənərək siyasi etimadın simvoluna çevrildi. Türkiyə Azərbaycana dəstək verərkən Bakının beynəlxalq tanınan sərhədlər daxilində hərəkət etdiyini, işğal altındakı ərazilərinin azad etdiyini dünyaya çatdırırdı. Bu yanaşma demokratik ənənələr və beynəlxalq normativlərinə hörmət etməklə suverenlik və müdafiə haqqını önə çıxardı. 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi hər iki dövlətin  təhlükəsizliyinin təminatçısı kimi böyük bir funksiyanın sənədlərdə təsdiqini tapması idi. Türkiyənin dəstəyi milli və regional identiklik, müdafiə hüququ, suverenlik və diplomatik əlaqələrə yeni nəfəs gətirdi, digər türk dövlətlərinin də birliyini gücləndirməklə siyasi dəyərləri inkişaf etdirdi.

Bütün bunları nəzərə alıb dəyərlərin nəzəri və praktiki əhəmiyyətindən çıxış edərək belə qənaətə gəlmək olar ki, problemin müasir sosial-fəlsəfi və fəlsəfi-siyasi aspektdən tədqiqi olduqca aktualdır və elmi əhəmiyyət kəsb etməsilə diqqəti cəlb edir.

Aksiologiya müstəqil fəlsəfi tədqiqat sahəsinə çevrildikdən sonra bir çox dəyər konsepsiyaları meydana gəldi. Bunlardan naturalist psixologizm, transsendentalizm, personalist ontologizm, mədəni-tarixi relyativizm və sosiologizm konsepsiyalarını göstərmək olar.

Naturalist psixologizm konsepsiyası A.Meynonq, R.B.Perri, Ç.Dyui, K.İ.Lyusin tədqiqatları nəticəsində yaranmışdır. Bu konsepsiyaya görə dəyərlərin mənbəyini insanın biopsixoloji tədqiqatlarında axtarmaq lazımdır. Onlar aksiologiyanı dini zəmindən ayıraraq dəyərlərin müstəqil mövcudluğunu əsaslandırdılar.

XX əsrin II yarısından müasir dövrə qədər aksiologiya müstəqil fəlsəfi sahə kimi inkişaf etmişdir. Aksioloji transendentalizm-yeni kantçılıq konsepsiyası (nümayəndələri V.Vindelband, H.Rikkert) dəyərləri ideal varlıq hesab edir. Bu dəyərlər (xeyirxahlıq, həqiqət, gözəllik) müstəqil mövcuddurlar. Bununla da yeni kantçılar etik-esterik fenomendə dəyərlərin rolunu və əhəmiyyətini açıb göstərmişlər. Fəlsəfi antropologiya cərəyanının nümayəndələri R.Lotse[2], M.Şeler[3], H.Qartman və başqaları aksiologiyanı inkişaf etdirmişlər.

XIX əsrin sonu XX əsrin əvvəllərində dəyərlərin nəzəri əsasları filosof və sosioloqlar tərəfindən işlənmişdir. Fəlsəfi ədəbiyyatda məntiq və metafizikada dəyərlər irəli sürən Q.Lotsenin yanaşması diqqəti cəlb edir. Yeni kantçılardan Baden məktəbinin nümayəndələri V.Vindelband və H.Rikkert, eləcə də T.Parsons dəyərlər nəzəriyyəsini inkişaf etdirmişlər.

---

[2] Лотце, Г. Основания практической философии/С-Петербург,1882

[3] Щелер, М. Избранные произведения/Москва: Мысль, -1994, - 451 с.

Xarici ədəbiyyatda dəyərlərin siyasi həyatla, siyasi davranışla əlaqəsi Q.Opport[4], Q.Xofeted, K.Klakxon, R.İnqlhart, Ş.Şvarts tərəfindən işlənmişdir.

Sosial dəyərlərin formalaşmasına, strukturuna və məzmununa dair fundamental ideyaları A.Maslou, S.Morris kimi klassiklər tədqiq etmişlər.

Rusiya tədqiqatçıları V.P.Barışkov, V.A.Vasilenko, İ.T.Kasavin, B.Q.Kapustin, İ.M.Klamkin, N.İ.Lapin, B.A.Starostin, Q.L.Tulçinskiy[5] və b. dəyər problemini elmlərarası tədqiqat obyektinə çevirmiş, problemə konseptual və metodoloji yanaşmışlar.

Azərbaycan tədqiqatçıları - Z.Göyüşov, S.Xəlilov, İ.Məmmədzadə,Y.Rüstəmov, N.Mehdi, Q.Abbasova, Z.Hacıyev, M.Rzayev, D.İsmayılov, Z.Ağayeva, A.Həsənov, H.Əsədova dəyər problemini müxtəlif aspektdən araşdırmışlar.[6] S.Xəlilov

---

[4] Оппорт, Г. Личност и психология/-Москва: Мысль,-1998. -340 с.

[5]Барыщков, В.П. Аксиология. -Саратов:Наука, -2009. -65 с; Василенко, В.А. Ценность и ценностные отношения//Москва, Ленинград:Проблема ценности в философии. Наука, -1966. -108 с.; Касавин, И.Т. Ценности новой цивилизации: основания поиска и их критическая оценка// -Москва: Ценностный дискурс в науках и теологии, -2008. с.9-22;Старостин, Б.А. Ценности и ценностный мир.-Москва: Комп. Спутник,-2002.-152 с.; Тульчинский, Г.Л. Либеральная демократия как ориентир для посттоталитарных преобразований // Г.Л.Тульчинский -Москва: Политические исследования, -2002. -№ 3, -с. 24-29.

[6]Xəlilov S.Heydər Əliyev və azərbaycançılıq məfkurəsi.Bakı:AUN,2003;Xəlilov S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, 378 s. Xəlilov S.S.Mənəviyyat fəlsəfəsi.Bakı, 2007, 520 s.; Məmmədzadə İ.R. Bir daha fəlsəfə haqqında .Müasir yanaşmalar. Təmayüllər.Perspektivlər. Bakı: Təknur. 2012, 216 s.;İ.R. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında.Bakı: Təknur,2009, 226 s; İsmayılov D.Y. Liberalizm. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2013, 208 s. Ağayeva Z. Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik. Bakı: Elm, 2014,186 s.;Göyüşov Z.Əxlaqi sərvətlər. Bakı: 1966, 308 s.;Hacıyev Z. Fəlsəfə. Dərslik. Bakı: Adiloğlu, 2001, 378 s.; Həsənov A. Milli ideologiya və milli-mənəvi dəyərlər. Bakı. Təknur, 2013, 176 s.;Musayeva Ş. Dəyərlər və vətəndaş cəmiyyəti:bəzi etik aspektlərin təhlili. Bakı: Elm və Təhsil, 2013, s.78-79; Niyazi M., Dilarə M. Fəlsəfə tarixində Fəlsəfə (Dərs vəsaiti), Bakı: Qanun, 2005,432 s.; Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı: Elm, 2004,336 s. Rüstəmova A. Müasir dünya və Azərbaycan

“Mənəviyyat fəlsəfəsi”əsərində maddi və mənəvi, Qərb və Şərq dəyərlərini, dini-fəlsəfi dəyərləri, islam və xristian dəyərlərini, milli ruh, dövlətçilik və vətənpərvərliyin qarşılıqlı münasibətini, sənət və ədəbiyyatın mənəviyyata təsiri problemlərini, “Şərq və Qərb ümumi bəşəri ideala doğru” əsərində milli fəlsəfi fikirdə dəyər, mədəniyyət və ideologiya, Şərq və Qərb sivilizasiyalarının milli və dini aspektləri Şərq və Qərb dəyərlərinin qloballaşma dövründə inteqrasiyaya və vəhdətə doğru inkişafı, Şərq və Qərbdə elmi-fəlsəfi proseslər araşdırılmışdır. Y.Rüstəmov dəyəri “əhəmiyyət”, “fayda”, “ziyan” anlayışları ilə bağlı olan sosial və fərdi fenomen hesab edir.Fəlsəfə elmləri doktoru N.Mehdi maddi və mənəvi dəyərlərin qarşılıqlı münasibətlərini tədqiq etmiş, mənəvi dəyərlərə üstünlük vermişdir. M.Rzayev “Fəlsəfədə dəyər kateqoriyası” əsərində dəyərlərin mahiyyətini, aksioloji əsaslarını, şəxsiyyətin formalaşması və sosiallaşmasında dəyərlərin rolunu fəlsəfi aspektdən tədqiq etmişdir. Z.Ağayeva “Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik” əsərində mənəvi dəyərlərin mahiyyəti və məzmununu, müasir dövrdə milli dəyərlərin taleyini, mənəviyyat və dinin qarşılıqlı münasibətlərini, dəyərlərin böhranını, ailə dəyərləri problemini, milli-mənəvi dəyərləri azərbaycançılıq ideologiyasının əsası kimi, Azərbaycanın modernləşməsində milli dəyərlərin rolunu, vətənpərvərlik, təbiətə mərhəmət problemini təqdim etmişdir. Fəlsəfə elmləri doktoru, professor D.İsmayılov konservativ, liberal və sosial-demokratik dəyərlərin qarşılıqlı təsirini və inkişaf xüsusiyyətlərini, Azərbaycanda tətbiqi və reallaşması məsələlərini, hüquqi dövlət quruculuğu prosesində aksioloji problemlərin təzahürünü tədqiqat obyektinə çevirmişdir. Beləliklə, dəyərlər probleminin işlənmə dərəcəsinin təhlili göstərir ki, onun tədqiqi üçün müəyyən nəzəri, metodoloji və praktiki baza yaranmışdır. Bununla yanaşı müasir Azərbaycanın transformasiyası şəraitində onun siyasi həyatında dəyərlərinin

---

reallıqları: fəlsəfi təhlil. Bakı: AFpoliqrAF. 2017, 240 s.;Rzayev M. Fəlsəfədə dəyər kateqoriyası. Bakı.AZTU, 2009, 60 s. Şəmsizadə H. Azərbaycançılıq. Bakı: Nurlar NPM, 2006, 192 s.; Tağıyev Ə. Şükirov M. Etnopolitologiya. Bakı: Elm, 2000.165 s.;Yusifov M. H.Ə.Əliyev və azərbaycançılıq ideologiyası. Bakı: Nurlan, 2003,176 s.

rolunun araşdırılmasına kifayət qədər diqqət verilməlidir. Bu şərait dəyərin daha dərindən tədqiq edilməsinə zərurət yaratmışdır.

**Tədqiqatın obyekti** cəmiyyətin siyasi həyatı, **predmeti** isə dəyərlərin siyasi həyata təsiridir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi müasir Azərbaycan siyasi həyatında dəyərlərin spesifikliyinin və dinamikasının aşkar olunmasından ibarətdir.

Tədqiqatın obyektinə, predmetinə və məqsədinə uyğun olaraq qarşıda aşağıdakı vəzifələr qoyulmuşdur:

-siyasi həyatı fəlsəfi aspektdən təhlil etmək;

- Müasir demokratik proseslərin siyasi şüurun formalaşmasına təsirini tədqiq etmək;

-dəyərin sosial-fəlsəfi kateqoriya kimi mahiyyətini açmaq, fəlsəfədə dəyər probleminin ontoloji əsaslarını şərh etmək;

-siyasi sosiallaşmanın gedişində siyasi amillərin mahiyyətini açmaq;

-Azərbaycanın hüquqi dövlət quruculuğunda siyasi aksiologiyanın rolunu, dəyərlərin inkişafında baş verən dəyişiklikləri üzə çıxarmaq;

-siyasi münasibətlər sistemində mədəni-əxlaqi və milli dəyərlərin qarşılıqlı münasibətlərini determinə edən əsas amilləri müəyyən etmək.

**Tədqiqatın metodları.** Tədqiqatın gedişində tarixi, dialektik, analiz, sintez, müqayisəli və sistem yanaşma kimi metodlar tətbiq edilmişdir. Zəruri hallarda Azərbaycan və Qərb tədqiqatçılarının bir sıra konsepsiyaları əsasında yaradılmış sosial-siyasi elmi aparatdan istifadə edilmiş, ümumelmi metodologiya tətbiq edilmişdir.

**Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılardır:**

1.Dəyər nəzəriyyəsinin nəzəri-metodoloji əsaslarının hərtərəfli təhlili bilavasitə siyasi həyata təsir edən dəyər qaydalarını, yönümlərini və təsəvvürlərini dəqiqləşdirməyə imkan yaratmışdır.

2.Dəyərlər müəyyən həyatı yönümlər kimi siyasi sahədə insanların maraqlarına toxunaraq yalnız obyektiv reallıq olaraq nəzərdən keçirilmir, həm də şəxsiyyətin siyasi sosiallaşmasının real hərəkət

edən immanent tənzimləyiciləri kimi onların siyasi davranışlarına da təsir edən əsas amil olaraq çıxış edirlər.
3.Azərbaycan cəmiyyətinin transformasiya prosesləri dəyərlərin demokratiyaya, onun mədəni-əxlaqi tərkib hissəsinə uyğun olaraq formalaşması zərurətini tələb edir, onlar təbii hüquqa əsaslanan bütöv əxlaqi-siyasi sistem yaradaraq demokratik davranış nümunələri formalaşdırır, cəmiyyəti və siyasi həyatı, bütövlükdə siyasi sistemi humanistləşdirirlər. Siyasi həyatın əxlaqi-hüquqi aspekti siyasi dəyərlərə dinamik, səfərbəredici xarakter verir, onlar isə mühüm ictimai əhəmiyyətli vəzifələri həll etməyə imkan verir.
4.Siyasi, mədəni-əxlaqi və milli dəyərlərin dəyişməsi müasir Azərbaycanda baza dəyərlərinin-vətəndaş borcunun, insan ləyaqətinə hörmətin, sosial ədalətin və vətənpərvərliyin inkişafına təsir edir. Dəyər sisteminin qeyri-müəyyənliyi cəmiyyətə mənfi təsir göstərir, sosial böhranların əmələ gəlməsinə, dağıdıcı meyillərin canlanmasına səbəb olur.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan sosial fəlsəfə elmində dəyərin cəmiyyətin siyasi həyatında rolunu hərtərəfli, kompleks şəkildə tədqiq olunmasına cəhd edilmişdir. Tədqiqatın yeniliyi kimi aşağıdakıları göstərmək olar:

-siyasi həyatın mahiyyəti, quruluşu və prinsiplərinə yeni fəlsəfi baxış bucağından yanaşılmışdır;

-siyasi həyatın kompleks xarakter daşıması tanınmış filosofların fikirlərinə istinad edilməklə əsaslandırılmış, siyasi fəaliyyətin əsas xüsusiyyətləri ətraflı şəkildə təhlilə cəlb edilmiş, rəqəmsal siyasi fəaliyyət barədə araşdırma aparılmışdır;

-sosial institutların cəmiyyətin üzərində nəzarətinin güclənməsi, siyasi sosiallaşmada dəyərlərin rolunun artması diqqət mərkəzinə gətirilmişdir;

-siyasi, mədəni-əxlaqi və milli dəyərlərə təsir edən amil və şərtlərin təhlil edilməsi nəticəsində sübut olunmuşdur ki, Azərbaycanın hüquqi dövlət quruculuğunun daha da demokratikləşməsi üçün əsas yaranmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti ondadır ki,** dissertasiyanın məzmununu təşkil edən müddəalar və nəticələr dəyərlərin siyasi həyatda yeri və rolu haqqında elmi konsepsiyanı zənginləşdirməyə

imkan verir. Dissertasiya müasir Azərbaycan cəmiyyətində siyasi aksiologiya və dəyərlər sisteminin məzmununun aydınlaşdırılması prosesinə mühüm töhfə bəxş edir.

**Tədqiqatın praktik əhəmiyyəti** onunla müəyyənləşir ki, dissertasiyanın nəzəri müddəalarından cəmiyyət həyatının bir çox siyasi prosesləri və hadisələrinin qiymətləndirilməsi və təhlili metodologiyasının işlənib hazırlanması zamanı, mədəniyyət, təhsil, tərbiyə, kütləvi informasiya vasitələri sahəsində dövlət siyasətinin əsaslarının formalaşdırılmasına dair praktiki işlərdə, əhalinin siyasi mədəniyyətinin formalaşmasının tərbiyə işləri aspektində, dəyərlər, qiymətləndirmələr və dəyər yönümü problemlərin tədqiqi fəaliyyətində, ali məktəblərdə sosial fəlsəfəyə, politologiyaya, sosiologiyaya dair mühazirələrdə, tədris prosesində siyasi şüura, siyasi mədəniyyətə və siyasi aksiologiyaya dair xüsusi kurslarda və tədris proqramlarının hazırlanmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Disssertasiya Naxçıvan Dövlət Universitetinin "Fəlsəfə və sosial iş" kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları və nəticələri respublika və beynəlxalq səviyyəli elmi-praktiki konfranslarda aprobasiya olunmuşdur.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən (21.408 işarə), 3 fəsildən (I fəsil – 56.045 işarə; II Fəsil–57.416 işarə, III Fəsil – 85.591 işarə), 7 paraqrafdan, nəticədən (13.898 işarə) və ədəbiyyat siyahısından (16.577 işarə) ibarətdir. Dissertasiyanın ümumi həcmi 252 549 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılmış, tədqiq olunmuş problemin dairəsi müəyyən edilmiş, öyrənilmə dərəcəsi səciyyələndirilmiş, məqsəd və vəzifələri, tədqiqatın obyekti və predmeti, tədqiqat metodologiyası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və strukturu qeyd edilmişdir.

Dissertasiyanın birinci fəsli **“Müasir şəraitdə siyasi həyatın səciyyəvi xüsusiyyətləri”** adlanır. Həmin fəslin “**Siyasi həyatın fəlsəfi təhlili”** adlı birinci paraqrafında siyasi həyat sosial, siyasi, iqtisadi, mədəni-tarixi amillərlə müəyyən edilən mövcud şəraiti dəyərləndirməyə imkan verən fenomen kimi səciyyələndirilir.

Qeyd edilir ki, cəmiyyətin siyasi həyatına dövlətin tipləri, siyasi quruluş, siyasi təşkilatlar, siyasi mədəniyyət və şüur, hakimiyyət strukturları, siyasi ünsiyyət formaları və başqaları daxildir. Siyasi həyat xalqın mədəni-tarixi ənənələri, milli xüsusiyyətləri ilə formalaşır. Onun normativ-institusional elementləri cəmiyyətin özündə yaranır və siyasi partiyalar tərəfindən dövlət hakimiyyətinə tətbiq olunur. Siyasi həyat siyasi sistemi xarakterizə edərək, burada cərəyan edən hadisə və prosesləri, vətəndaşların qarşılıqlı münasibətlərini ehtiva edir, siyasi hakimiyyətin təşkilində böyük əhəmiyyət kəsb edir. Belə ki, dövlətin ali hakimiyyət orqanlarının fəaliyyəti məhz siyasi həyatın mərkəzində dayanmaqla, düzgün siyasi qərar verilməsini və ədalətli idarəetməni səciyyələndirir.

Bu paraqrafda siyasi həyatın dərk olunması səviyyələri qeyd edilir və göstərilir ki, siyasət, siyasilik və siyasi həyat anlayışları tarixi-genetik, substansional-həyati, qnoseoloji-idraki aspektlərə malikdir. Siyasi həyatın tarixi aspekti onun mənşəyi ilə bağlıdır. Belə ki, əvvəlcə insanın adi, gündəlik həyatı təşəkkül tapır, sonra inzibati, daha sonra isə siyasi təsisatlar meydana gəlir. Siyasətin qnoseoloji və substansional aspektləri real, siyasi həyatda qarşılıqlı əlaqədə olub şüur və varlığa qarşılıqlı nüfuz edir.“Siyasi həyat” anlayışı qnoseoloji və substansional amillərin qovşağında xüsusi əhəmiyyət kəsb edir. Siyasi həyatın qnoseoloji səviyyəsi daha mürəkkəb, çoxcəhətli və kompleks xarakter daşıyır.

Diqqətə çatdırılır ki,siyasi həyatın formalaşmasının əsasını siyasi fəaliyyət və siyasi hakimiyyət təşkil edir. Siyasi həyatın strukturunda siyasi münasibətlər və siyasi sistem əsas yer tutur. Burada siyasi münaqişə və siyasi böhran amili də özünü göstərir.Siyasi fəaliyyət idarəetmə sahəsində həyata keçirilir, dövlət və siyasi hakimiyyətlə əlaqədardır. Siyasi hakimiyyət dövlət

sistemində meydana gəlir. Siyasi həyatın kompleksliyinə, eyni zamanda, siyasi həyatda baş verən hadisə və proseslərin dəyişkən olması, buradakı maraq və mənafelərin fərqli olması daxildir. Burada çoxsaylı amillər bir-birinə kömək edir.

Bu paraqrafda bildirilir ki,cəmiyyətin siyasi sistemində dövlət mərkəzi yer tutur. Bu, hər şeydən əvvəl onunla əlaqədardır ki, dövlət siyasi hakimiyyətin xüsusi təsisatıdır. Siyasi hakimiyyət iqtisadi, ideoloji, təşkilati-hüquqi təsirlər vasitəsilə, habelə nüfuzun, ənənənin, zorakılığın köməyi ilə insanların, sosial qrupların davranışına təsir göstərmək qabiliyyəti kimi səciyyələnir. Siyasi hakimiyyət insanların birgə fəaliyyətinin təşkili və tənziminin mühüm amili, onların qarşılıqlı münasibətlərinin qaydaya salınmasının, cəmiyyətdə nizam-intizamın və sabitliyin təmini vasitəsidir.

Bu paraqrafda yekun olaraq qeyd olunur ki,siyasi həyat strukturca bir çox hadisə, faktların məcmusundan ibarətdir ki, onlar da siyasətin obyektlərinin və subyektlərin davranışını və qarşılıqlı əlaqəsini əks etdirir. Onlara bir çox siyasi münasibətlər-dövlət hakimiyyətinin qolları və subyektləri dövlət, vətəndaş cəmiyyəti və onun strukturları, partiyalar, ictimai birliklər arasında münasibətlər daxildir. Siyasi həyatın strukturuna həmçinin siyasi proseslər, siyasətin subyektlərinin fəaliyyətinin məcmusunun dərk olunması, ictimai həyatda dəyişikliklərlə-əlaqədar olan seçki prosesi, siyasi sistemlərin islahatları və s. proseslər də daxildir.

Dissertasiyanın birinci fəslinin **“Müasir demokratik proseslərin siyasi şüurun formalaşmasına təsiri”** adlanan ikinci paraqrafında göstərilir ki, antik dövrdə dövlət və dövlət hakimiyyətinin yaranması ilə siyasi şüur da meydana gəlmişdir. Hətta qədim Yunanıstanda siyasət bütün ictimai şüur formalarına nüfuz etmiş, siyasətin fəlsəfəsi yaranmış, etika, fəlsəfə və siyasətin, siyasi şüurun qarşılıqlı münasibətləri məsələsi Sokrat, Platon, Aristotel və ellinizm fəlsəfəsinin bir çox nümayəndələrinin diqqət mərkəzində olmuşdur.

Burada diqqətə çatdırılır ki, siyasi şüurun əsas əlamətlərindən biri çoxsahəli, daxili ziddiyyətlərə malik olmasıdır. Siyasi şüur siyasi fəaliyyəti şərtləndirərək kütləvi, qrup və fərdi

siyasi şüura ayrılır. Problemə fəlsəfi yanaşma siyasi şüurda adi və nəzəri səviyyələrin fərqlənməsini tələb edir. Bundan başqa siyasi milli şüur da mövcuddur. Siyasi şüur insanların siyasi fəaliyyətinin bilavasitə maraqlarının təzahürüdür. Cəmiyyətin siyasi şüuru yekcinsli deyil, bütün sosial qüvvələr arasında münasibətləri əhatə edir. Fəlsəfə öz mahiyyətinə görə siyasidir, öz tarixi missiyasını yerinə yetirir, sosial fəlsəfə müəyyən sosial-siyasi funksiyanı həyata keçirir, ictimai-siyasi reallığı qiymətləndirir.

Bu paraqrafda siyasi şüur anlayışının, onun strukturu siyasi və fəlsəfi elmlər tərəfindən araşdırıldığı, siyasi şüurun strukturunda ideoloji (ideoloji doktrinalar), psixoloji (dəyərlər, əhval-ruhiyyələr), idrakı (siyasət haqqında biliklər, siyasi hadisələrə maraq) və motivasion (tələbatlar, qaydalar), nəzəri və adi refleksiya səviyyələrinin fərqləndiyi, siyasi şüurun subyektindən asılı olaraq elitar (siyasi elita, ideologiya, dil, təbliğat və təşviqat), xalq (sağlam məna, fərdi və kollektiv təcrübənin dərk olunması) siyasi şüuruna ayrıldığı göstərilir.

Dissertasiyada göstərilir ki, müasir Azərbaycan güclü dövlət və liberal iqtisadiyyat quruculuğu yolu ilə inkişaf edir. İ.Məmmədzadənin fikrincə,vətəndaş şüuru tam möhkəmlənməmiş bir şəraitdə dövlət öz üzərinə öhdəlik götürməli, milli dövlət və milli şüur quruluculuğu prosesini stimullaşdırmalıdır*”.*[7]

Müəllif milli dövlət və siyasi milli şüur quruculuğu prosesinin, islahatların dəyişikliyə, transformasiyaya gətirib çıxaracağını güman edir.

Qeyd olunur ki,siyasi şüurun məzmununa siyasi normalar, dəyərlər daxildir. Siyasi şüurun tənzimləyici, qiymətləndirici, inteqrativ, idraki, proqnostik, səfərbəredici funksiyaları vardır. Siyasi şüurun məzmunu insanlarda siyasi yönüm və normativ təsəvvürü yaradır, burada məntiqi sürətdə siyasi dəyər və yönüm prioritet təşkil edir. Açıq siyasi şüur özgə sosial-siyasi təcrübənin, dəyər və ənənələrin qavranılmasını tələb edir, qapalı siyasi şüur isə ümumbəşəri dəyər yönümləri qəbul etmir, korporativ, lokal, qrup siyasi dəyər və məqsədlərə əsaslanır. Postsovet məkanında, o

---

[7] Мамед-заде И. Опыт интерпретации морали. Баку:Муаллим, 2006, с.111

cümlədən Azərbaycanda demokratiya şəraitində siyasi şüurun liberal-demokratik tipi formalaşır. Siyasi şüur daim dəyişir sadə formadan mürəkkəbə doğru inkişaf edir.

Dissertasiyanın ikinci fəsli "**Dəyər sosial fəlsəfənin kateqoriyası kimi**" adlanır. Həmin fəslin **"Fəlsəfədə dəyər probleminə baxış (mahiyyəti və ontoloji əsasları)"** adlanan birinci paraqrafında göstərilir ki,"dəyər" sözü müasir mədəni, fəlsəfi leksikada ən geniş işlənən məşhur anlayışlardan biridir. Bu gün sosial-humanitar elmlərdə milli-mənəvi, geosiyasi, liberal, ənənəvi, etik, estetik, mədəni, dini dəyərlər ifadələrinə tez-tez təsadüf edirik. Dəyər fəlsəfi kateqoriya kimi dünyagörüşü əhəmiyyət kəsb edir.

Burada göstərilir ki, qədim yunan filosofu Sokrat dəyəri faydalılıqla, Platon ictimai xoşbəxtlik və rifahla, Aristotel rifahla əlaqələndirir. Roma filosofu Siseron Aristotel, Epikur və Zenonun ardınca "praktiki fəlsəfə"dən bəhs edir.

Nəzərə çatdırılır ki,yeni dövrdə dəyər problemini ilk dəfə fransız filosofu R.Dekart işlətmişdir. Fransız mütəfəkkiri B.Paskal yüksək sosial statusu ilə əlaqədar olan şərti (grandeurs) və ruha, bədənə mənsub təbii insan ləyaqətini fərqləndirirdi. İngiltərədə aksioloji terminologiya və problemlər əxlaqi hisslər konsepsiyasının qəbul olunması ilə əlaqədar şərh olunurdu. İngilis filosofu A.Şeftsberi fərdin mənəvi dəyərlərini estetikliklə birləşdirdi. D.Yum "İnsan təbiəti haqqında traktakt" əsərində göstərirdi ki, mənəvi davranışların mənbəyi dəyərlərə malik insansevərlik və ədalətlilikdir. Lakin o, ədaləti ruhun yeganə anadangəlmə keyfiyyəti hesab etmişdir. Dərin mənəvi hisslər motivini aşkar etmək üçün fərdin əsas müəyyənedici rolu olan etiklik və estetikliyin ifadəsi kimi hissi simpatiya oynayır. İctimai rifaha meyli olan bütün rəzalətlər öz mənəvi dəyərini simpatiyalardan alır. Yumun fikrincə, öz məqsədinə çatmayan fəzilətin dəyəri olmaz. Dəyərlər probleminə yeni nöqteyi-nəzərdən yanaşan filosoflardan biri İmmanuel Kant olmuşdur. O, bu məsələni Yumun əksinə olan istiqamətdə həll edir: mənəvi davranışların dəyəri ruhun "təbii" vəziyyətilə deyil, daha çox ona əks olan bu vəziyyətə təsir edən ağılla və iradə ilə qarşılıqlı

münasibətdədir.Kantın fikrincə, ağıllı varlıqların dəyərlərinin mümkün qiymətləndirilməsi onların təmannasız davranışlarına əsaslanır: *"Onun fikrincə, əxlaqi əməldə azadlıq təzahür etməlidir. Bu azadlıqda isə yüksək dəyər önə çıxır.Filosof mənəvi qanunu müəyyən edən dəyəri fərqləndirərək varlığın üç bir-birindən fərqli dəyər səviyyəsi haqqında mühakimələrini irəli sürürdü. Kant baza dəyərləri, emosional dəyər və daxili dəyəri bir-birindən fərqləndirməklə bildirirdi ki, bu dəyərlər cəmiyyətdə mövcuddur. O, hörmətə, ləyaqət kateqoriyasına üstünlük verərək qorxunu qəbul etmirdi"*[8]. Bununla da bütövlükdə Kant öz fəlsəfəsində Kopernikin elmi çevrilişini həyata keçirmiş olur: o, dəyərlər nəzəriyyəsində çevriliş edir. Kantın ilk kəşfinin əhəmiyyəti ondadır ki, o, fəaliyyətdə olan subyektin prinsipial olaraq "yeni" yaratdığı dəyərlər aləmini müəyyən etmişdir.

Müsbət və mənfi dəyərlər anlayışı sosial fəlsəfədə geniş müzakirə obyektinə çevrilmişdir. Əgər müsbət dəyərlər insanlara fayda verən, cəmiyyəti inkişaf etdirən, harmoniyanı gücləndirən tərəfdirsə, mənfi dəyərlərin dağıdıcı təsirləri vardır. Müsbət dəyərlər həqiqət, ədalət, mərhəmət, vicdan və səmimiyyətlə xarakterizə olunur. Mənfi dəyərlərin dağıdıcı təsiri vardır. Onlar cəmiyyətdə insanları bir-birindən uzaqlaşdırır, qarşılıqlı etimadı, etibarı və humanizmi zəiflədir. Mənfi dəyərlər kimi, yalanı, qısqanclığı, nifrəti, təkəbbürü, biganəliyi göstərmək olar. Bir toplumun üstünlük verdiyi dəyər digər toplum tərəfindən qəbul edilməyə bilər. Belə ki, fərdiyyətçiliyə müsbət dəyər kimi yanaşan toplum, kollektivçiliyə mənfi dəyər kimi qiymət verir. Belə dəyərlər insanlara da müxtəlif cür təsir edir. Müsbət dəyərlərin daşıyıcıları daha mülayim, sülhsevər olur, mənfi dəyərlərlə yaşayanlar daim narahat həyat tərzi keçirir, problem yaratmağa meyilli olur. Bununla belə, bəzən mənfi kimi görünən dəyər pozitiv niyyətə hesablanmış ola bilər. Belə ki, bir şəxsi qorumaq üçün bəzən yalan danışmaq lazım gələ bilər. Burada niyyət və nəticə qiymətləndirilməlidir.

---

[8]Кант И. Сочинения. Т.III/ Подготовил к изд. Э.Соловьевым и А.Судаковым. Москва: Мысль, 1996,166-167 с.

Bu paraqrafda dəyərlərin humanistləşdirici, tənzimləyici, müəyyənedici, idrakı, tərbiyəvi, kommunikativ funksiyalarının cəmiyyətə təsir edərək oradakı stereotipləşmiş dəyər təsəvvürlərini də dəyişdirdiyi göstərilir.

İkinci fəslin ikinci paraqrafı **"Cəmiyyətin siyasi sosiallaşmasında dəyərlərin rolu"** adlanır. Həmin fəsildə göstərilir ki, müasir dövrdə cəmiyyətin siyasi sosiallaşması siyasi mədəniyyətin tərkib hissəsi olub şəxsiyyətin sosiuma tam hüquqla daxil olmasını səciyyələndirir. Bugünkü Azərbaycan cəmiyyətində gənc nəslin  siyasi sosiallaşması ictimai-siyasi xarakterli problemlərin mövcudluğu onlarda tolerantlığı, vətəndaşlıq mövqeyini və vətənpərvərliyi formalaşdıran güclü amillərdəndir. Sosiumun siyasi mədəniyyətinin əsaslarının transformasiyası yeni dəyərlərin təşəkkülünə gətirib çıxarır.

Siyasi sosiallaşma fərdin siyasi sistemə, siyasət aləminə daxil olma prosesidir. Professor M.A.Vasilik "sosiumdakı siyasi şüura uyğun gələn siyasi davranış və qaydaları, siyasi mədəniyyət və mədəni dəyərləri siyasi sosiallaşma kimi xarakterizə edir"[9].

Müəllif siyasi sosiallaşmaya insanda konkret siyasi sistemdə uyğunlaşmaya, orada müəyyən funksiyaları yerinə yetirməyə imkan verən bacarıq və xüsusiyyətlərin formalaşmasına gətirib çıxardan cəmiyyətin təşəkkül tapmış siyasi mədəniyyətinin standartlarının tədrici mənimsənilməsi prosesi kimi baxır.Bu deyilənlərdən məlum olur ki, siyasi sosiallaşma cəmiyyətin siyasi mənəvi mədəniyyətinin və dəyərlərinin mənimsənilməsi prosesidir.

Diqqətə çatdırılır ki, bu gün qloballaşma nəinki siyasi sosiallaşmaya, şəxsiyyətin dəyər yönümünə, siyasi mədəniyyətə, hətta bütövlükdə cəmiyyətin siyasi sisteminə ciddi təsir edir, onun ictimai siyasi, mədəni həyatını, dəyərlər sistemini dəyişdirir. Qloballaşma ümumi planetar dəyərlərin yaranmasına kömək edən beynəlmiləlləşmə prosesidir. Lakin qloballaşma ənənəvi milli, mənəvi dəyərlərə dağıdıcı təsir etdiyi üçün əslində xalqların həyatında faciə yaradıcı bir proses hesab olunur. Bunu bəzən Qərb

---

[9]Василик М.А. Политология. Москва: Гардарики, 2001, с.379

dəyərlərinin qeyri-Qərb millətlərinin və xalqlarının dəyərlərinə çevrilməsi kimi də səciyyələndirirlər, onların siyasi sosiallaşmasına təsir edən amil kimi qiymətləndirirlər.

Bir sözlə, diqqətə çatdırılır ki, qloballaşma siyasi sosiallaşma sahəsində müəyyən proses kimi özünü göstərir. Çoxları belə düşünür ki, qloballaşma ənənəvi, milli dəyərlərə mənfi təsir edərək kütləvi dəyərlərin hökmranlığına gətirib çıxarır. Lakin unutmaq olmaz ki, kütləvi mədəniyyət və dəyərlər xalqları bir-birilərinə yaxınlaşdırır, onların siyasi sosiallaşmasını gücləndirir, bu xalqların siyasi-mənəvi vəhdətini yaradır Bir sözlə müxtəliflikdə vəhdət əmələ gəlir. Yəni universal, ümumbəşəri dəyərlər özünəməxsusluğunu itirmədən dünyanın dəyərlərinin birləşməsi, inteqrasiya prosesində iştirak edir.

Dəyərlər sistemində müxtəlif komponentlər təşəkkül tapır ki, onların arasında mürəkkəb münasibətlər-fəlsəfi dünyagörüşlü, mənəvi, siyasi, ideoloji, rasional və emosional münasibətlər yaranır. Məlum olduğu kimi, tədqiqatçı Ş.Musayeva yazır, "dəyərlər sistemi mədəniyyətin mənəvi tərəfini ehtiva etməklə yanaşı ictimai şüurun formalarında,o cümlədən siyasi şüurdada öz əksini tapır. Bütün mürəkkəb əlaqə və münasibətlər, rasional, emosional, ideoloji, siyasi və s. münasibətlər dəyərlər sisteminin tərəfləridir. Dəyər özündə mənəvi normaları ehtiva edir".[10] Məhz siyasi praktikada cəmiyyətlə, şəxsiyyətin qarşılıqlı əlaqəsi prosesində siyasi biliyin əqidəyə çevrilməsi baş verir. İnsanın həyatda qazandığı öz təcrübəsi əvvəl əldə etdiyi dəyərləri korrektə etməyə yeni siyasi davranış nümunələrini və dəyərləri mənimsəməyə kömək edir.

Qeyd olunur ki,fərdin siyasi sosiallaşmasına təsir edən amillər arasında xüsusi təsisatlar əsas yer tutur. Bu institutlar fərdə mədəni dəyərlər, normalar davranış nümunələri ötürürlər. Z.Ağayeva bununla əlaqədar yazır ki: "hər bir hadisə, proses və ya subyektə dəyər nöqteyi-nəzərindən qiymət verilir. Ümumiyyətlə, insanın bütün fəaliyyəti dəyər bucağından qiymətləndirilə bilər.

[10]Musayeva Ş. Dəyərlər və vətəndaş cəmiyyəti:bəzi etik aspektlərin təhlili. Bakı: Elm və Təhsil, 2013, s.78-79.

Məhz dəyərlərə əməl edilməsi insan həyatını düzgün yola istiqamətləndirir”[11]. Müəllif insanları, xalqları, millətləri istiqamətləndirən dəyərlərin öz milli mədəniyyətlərindən qidalandığını qeyd edir, millətlərin əsrlər boyu formalaşdırdığı ənənəvi dəyər strukturlarına uyğun müasir ideallarını seçdiklərini diqqətə çatdırır.

Beləliklə, qeyd edilir ki, elmlərarası anlayış olan və siyasi sosiallaşmaya təsir edən dəyərlər siyasət sahəsində seçim və insan davranışı ilə şərtlənir. Bu zaman dəyər əsasında insanın siyasətə fəal münasibəti formalaşır. Ümumbəşəri, ümummilli, demokratik, radikal dəyərlər insanların həyat tərzlərinə davranışlarına təsir edir, onların siyasi prosesdə iştirak formalarını dəyişdirir. Azərbaycanda demokratiyanın və siyasi sosiallaşmanın perspektivləri cəmiyyətin demokratik dəyərlərini mənimsəmə prosesindən asılıdır.

Dissertasiyanın “**Siyasi münasibətlər sistemində dəyərlərin rolu”** adlanan üçüncü fəslinin **“Siyasi həyat və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı əlaqəsi”** adlı birinci paraqrafında göstərilir ki,siyasi həyat və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı münasibətləri sosial fəlsəfənin əbədi problemlərindən biridir. Siyasi həyatın gələcəyi məhz mədəni-əxlaqi dəyərlərin səviyyəsindən yeni nəsillərin mənəvi yönümündən asılıdır. Bu gün sosial fəlsəfə elminin qarşısında duran əsas vəzifələrdən biri insanları, xüsusilə böyüməkdə olan nəsilləri əcdadların mədəni-əxlaqi dəyərlər tarixini öyrənmək, həmin dəyərləri onlara aşılamaqdır. Mədəni-əxlaqi dəyərlər siyasi həyatın təsisatlarında, modellərində və üsullarında təcəssüm olunur. Burada göstərilir ki,siyasi həyata ciddi təsir edən mədəni-əxlaqi dəyərlərin tərkib hissəsi kimi vətənpərvərlik, həm də azərbaycançılıq ideologiyasının ümummilli ideoloji əsası olub, mənəvi mahiyyət daşımaqla yanaşı, birləşdirici və möhkəmləndirici funksiyanı yerinə yetirir.

Bu paraqrafda göstərilir ki,siyasi həyata təsir edən mədəni-əxlaqi dəyərlər sistemində ləyaqət, alicənablıq, humanizm, vətənpərvərlk əsas yer tutur. Mədəni-əxlaqi dəyərlər sisteminin tərkib hissəsi kimi dünyəvi humanizm siyasi həyati problemlərin həllində

[11]Ağayeva Z. Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik. Bakı: Elm, 2014, s.19

İTK-ya, elmə, təfəkkürə böyük əhəmiyyət verir, mədəniyyətin postmodernist paradiqmasının əsasını təşkil edir.

Mədəni-əxlaqi dəyərlər sistemində önəmli yer tutan humanist dəyərlər və qanunların siyasi həyata təsirini, onun demokratiya ilə bağlılığını göstərmək olar. Siyasi həyatda mədəni-əxlaqi dəyərlər hiss və cəhdlərin sintezi kimi dəyişməz rol oynayır, siyasi həyatın məqsəd və mənasının dərk olunmasında həlledici amil kimi çıxış edir, şəxsiyyətin ictimai həyatın bütün sahələrində, o cümlədən siyasi həyatda mövqeyini müəyyənləşdirir.

Dissertasiyanın üçüncü fəslinin **"Azərbaycanda milli dəyərlər siyasi münasibətlər müstəvisində"** adlanan ikinci paraqrafında göstərilir ki,sosial fəlsəfədə milli dəyərlər və siyasi münasibətlərin qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi olduqca aktual problemdir. Milli dəyərlərin dövlətin daxili və xarici siyasətində mühüm rolu vardır. Bu, hər şeydən əvvəl bəşər sivilizasiyasının yeni mərhələyə qədəm qoyması ilə əlaqədardır. Müasir dövr ümumi və yaxın milli dəyərlərə malik xalqlar, sivilizasiyalar, mədəniyyətlər arasında dialoqu zərurətə çevirmişdir. Qərb sivilizasiyasının öz dəyərlərini bütün dünyada milli dəyərlər sisteminə tətbiq etmək cəhdi əslində münaqişələr yaratmaq təhlükəsi doğurur. Dünyagörüşlərin, dinlərin, mədəniyyətlərin rəqabəti əsrlər boyu davam etmişdir. Ənənəvi milli dəyərlər müasir Azərbaycanın ideoloji silahı funksiyasını yerinə yetirir. Bəziləri səhv olaraq onu demokratik cəmiyyət üçün sosial və siyasi təhlükə hesab edirlər. Müasir dövrdə Azərbaycan cəmiyyətində milli dəyərlər siyasi kontekstdə azərbaycancılığa qovuşur. Məlum olduğu kimi, azərbaycanlıların milli xüsusiyyətləri və ənənələri kimi Azərbaycanın obyektiv tələbatları və inkişaf perspektivləri konteksində aşağıdakı milli dəyərlər sistemini müəyyənləşdirmək olar: Vətənə məhəbbət; millət-dövlət birliyi; ailə dəyərləri; şəxsiyyət azadlığı; liberal-demokratik dəyərlər; dilindən, dinindən, milli mənsubiyyətindən, ictimai mövqeyindən asılı olmayaraq bütün insanların bərabərliyi; maddi və mədəni sərvətlər; ərazi bütövlüyü; mədəni müxtəliflik; yüksək mənəvilik.

Qeyd olunur ki, “Azərbaycanın milli dəyərlərində ümümtürk ruhu, milli, Şərq, ümumdünya mədəni və siyasi dəyərlərlə azərbaycançılığın vəhdətini özündə təcəssüm etdirir. Azərbaycan dövlətinin siyasi məfkurəsinin təməl prinsiplərindən biri də azərbaycançılıq ideyasıdır. Bu ideya hər yerdə özünü biruzə verir: mədəniyyətdə, siyasətdə, əxlaqda və mənəviyyatda. Dəyərlər həm də dövlətçiliyin mövcudluğunun qarantı kimi çıxış edir”[12]. Deməli, azərbaycançılıqda millilik, ümumbəşərilik və siyasilik vəhdət təşkil edir. Milli dəyərlərlə azərbaycançılığın qarşılıqlı münasibətlərində bəzi tədqiqatçılar azərbaycançılığın daha geniş məna kəsb etdiyini, milli dəyərlərin onun tərkib hissəsi olduğunu, digərləri azərbaycançılığın milli dəyərlərə əsaslanaraq inkişaf etdiyini iddia edirlər.

Millətin, millətçiliyin, milli dəyərlərin öyrənilməsi metodologiyasının müəyyən edilməsində vahid yanaşma əsas rol oynayır. Millət bir-birilərilə bağlılıq və doğmalıq hislərilə birləşən insanların birliyindən yaranır. Millətçiliyin doğurduğu milli dəyərlər birləşdirici, inteqrativ xarakter kəsb etdikdə müsbət amil kimi dəyərləndirilir. Əgər millətçilik və onun məhsulu olan milli dəyərlər təcavüzkar, şovinist, separatçı, ksenofobik, təkəbbürlülük, xudbinlik xarakteri daşıyırsa onda o, cəmiyyət və insanlar üçün təhlükəlidir. Milli dəyərlərin və dövlətçiliyin qarşılıqlı münasibətləri şəraitində milli identiklik inkişaf edir, bu isə öz növbəsində mənəvi amillərin yüksəlməsini stimullaşdırır. E.Gelner bu mənada millətçiliyi və milli dəyərləri “*siyasi və milli vahidlərin üst-üstə düşməsini tələb edən siyasi prinsip, milli identikliyin inkişaf mənbəyi kimi diqqətə çatdırır*[13].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp ilə 2025-ci ilin avqustun 8-də Ağ Evdə görüşünün nəticəsini də müasir siyasi həyatda qazanılmış mühüm uğurlu danışıqlardan hesab etmək olar.D.Tramp və İ.Əliyev arasındakı danışıqlar balanslaşdırılmış siyasəti daha da dərinləşdirdi, sülh prosesinə təkan verdi, sülh müqaviləsinin mətnini

[12]Ağayeva Z. Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik. Bakı: Elm, 2014,s.152
[13]Гелнер Э. Нации и национализм. Москва: Мысль, 1991, с.129

parafladı, “Zəngəzur dəhlizi”nin açılmasını sürətləndirdi. Bu dəhlizin açılmasında ABŞ-nin də maraqlı tərəf olduğu bəyan edildi və dəhlizin Ermənistan ərazisindən keçən hissəsinin təhlükəsizliyinin ABŞ şirkəti tərəfindən həyata keçirilməsi vəziyyətin stabilləşməsini reallaşdırdı. İki liderin görüşü siyasi həyata və dəyərlərə də öz təsirini göstərdi.

Bu paraqrafda belə qənaətə gəlinir ki, milli dəyərlər siyasi müstəvidə təkcə millətin özünüdərki, milli şüuru, varislik ənənəsi ilə deyil, müasir dəyərlər və ideoloji-siyasi ideyaları ilə də bağlıdır.Fəlsəfi kateqoriya olan milli dəyərlər dünyagörüşü xarakter kəsb edərək siyasi-hüquqi amillərlə qarşılıqlı əlaqədə olur. Müasir Azərbaycan milli dəyərləri ümumbəşəriliyi, Şərq kökünə bağlılığını, Qərbyönümlülüyün vəhdətini özündə əks etdirir. Azərbaycan milli dəyərlərinin formalaşmasına geosiyasi təbii-coğrafi, demoqrafik amillər təsir edir. Bu dəyərlər özündə Şərq və Qərb mədəniyyətini,özünəməxsusluğu, unikallığı, maddi, mənəvi potensialı, zəngin tarixi, sosial-iqtisadi, siyasi, mədəni, coğrafi, milli-etnik, demoqrafik fərqli əlamətləri əks etdirir.

Dissertasiyanın üçüncü fəslinin sonuncu paraqrafı **“Hüquqi dövlət quruculuğu prosesi və siyasi aksiologiya”** adlanır.Bu paraqrafda siyasi aksiologiyanın hüquqi dövlətin siyasi mədəniyyət və dəyərlər sistemində əsas yer tutduğu göstərilir və qeyd edilir ki, hüquqi dövlətdə siyasi aksiologiya hüquq və konstitusiya aksiologiyası ilə qarşılıqlı əlaqədə mövcud olur.Siyasi aksiologiyanın əsas tədqiqat obyekti hüquqi dövlətdə siyasi dəyərlər sistemidir. Məlum olduğu kimi, hüquqi dövlət quruculuğunda əsas rol oynayan siyasi dəyərlər sistemindən ibarət siyasi aksiologiya siyasi fəlsəfənin tərkib hissəsini təşkil edir.

Burada diqqətə çatdırılır ki,siyasi aksiologiyanın əsas kateqoriyalarından olan siyasi təhlükəsizlik hüquqi dövlətin xarici və daxili təhlükələrdən, təhdidlərdən qorunmasıdır. Bununla əlaqədar olaraq təhlükəsizliyin aşağıdakı növlərini fərqləndirmək olar: hərbi, iqtisadi, epidemoloji, ərzaq, informasiya təhlükəsizliyi və s. Müasir cəmiyyətin həyatında ekoloji, demoqrafiya, miqrasiya, enerji, ərzaq çatışmazlığı, maliyyə böhranları, epi-

demiyalar, narkomaniya, terrorizm kimi qlobal risklər və təhdidlərə də təsadüf olunur.

Diqqətə çatdırılır ki, siyasi aksiologiyanın digər baza dəyəri olan “ədalət” anlayışı son dərəcə geniş məzmuna malikdir. O, insan fəaliyyətinin bütün sahələrini əhatə edir. Bu anlayışda cəmiyyət ilə onu təşkil edən qurumlar arasında, sosial birliklərin öz aralarında, bütövlükdə cəmiyyət və hər bir şəxs, eləcə də ayrı–ayrı insanlar arasında münasibətlər sistemi özünün spesifik inikasını tapır. Hər bir cəmiyyətdə insanların fəaliyyəti, onun nəticələrinin mübadiləsi üsulları, maddi və mənəvi nemətlərin bölgüsü prinsipləri, onun sosial ədalətlilik dərəcəsini müəyyən edən başlıca meyarlardır. Bu prinsipdə həm də bəşəriyyətin inkişafı prosesində qazanılmış ümumi uğurların dəyərlər baxımından qiymətləndirilməsi ifadə olunur.

Demokratik cəmiyyəti anarxiyadan qoruyan başlıca amil azadlığın məsuliyyətlə vəhdət təşkil etməsidir. Demokratiyanın mənimsənilməsi, hüquqi dövlət quruculuğunun inkişafı bu vəhdəti daha da möhkəmləndirir. Azadlığın bütün növləri məsuliyyətin müxtəlif formaları-hüquqi, siyasi, mənəvi-mədəni məsuliyyətlə sıx şəkildə əlaqəlidir. Azərbaycanda hüquqi dövlət quruculuğu yolunda əldə edilmiş nailiyyətlər azadlıq, bərabərlik və ədalət ideallarının gerçəkləşməsilə müşaiyət olunur. Azadlıqlardan geniş bəhrələnmək, bərabərlik və ədalət prinsiplərinin pozulmaması hüquqi dövlətin əsas strateji məqsədlərindən biridir.Hüquqi dövlətdə mənəvi idealın reallaşması üçün azadlığın təmin olunması əsas rol oynayır. Mənəvi ideal və azadlıq bir-birilərinə qarşılıqlı təsir edən fenomenlərdir..

Bu paraqrafda belə qənaətə gəlinir ki, hüquqi dövlət quruculuğu prosesində siyasi aksiologiya mühüm nəzəri əsas kimi çıxış edir və hüquqi dövlət prinsiplərinin həyata keçirilməsi müəyyən dəyərlər sisteminə əsaslanır. Siyasi aksiologiya milli, mənəvi aksiologiya ilə qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdə olub, demokratik, hüquqi Azərbaycan dövlətində əsas amil kimi çıxış edir. Bu gün siyasi aksiologiyanın əsas dəyərləri, formaları və institutları hüquqi dövlət quruculuğu prosesində həlledici əhəmiyyət kəsb edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində dissertantın yekun müddəaları və nəzəri-praktik tövsiyələri öz əksini tapmışdır. Cəmiyyətin siyasi həyatında dəyərlərin hərtərəfli tədqiqi müasir Azərbaycanın siyasi həyatındakı qanunauyğunluqları aşkar etməyə imkan verir. Müasir Azərbaycanda azərbaycanlıların milli maraqlarının vəhdətində azərbaycançılıq əsas rol oynayır. Ulu öndər Heydər Əliyev tərəfindən müstəqil ölkəmizdə reallaşdırılan bu ideya-dəyərlər sistemi burada yaşayan bütün etnik birliklərin, xalqların, milli azlıqların vahid dövlət tərkibində tolerant və multikultural mühitdə yaşamalarını təmin edir, onlar arasında milli birliyi, həmrəyliyi möhkəmləndirir və inkişaf etdirir. Bütün Azərbaycan vətəndaşlarının ümumi siyasi dəyərlər sistemi və milli ideyası olaraq çıxış edən azərbaycançılıq hər bir xalqın etnik xüsusiyyətlərinin və ümummilli maraqlarının vəhdəti kimi cəmiyyətin tələbatlarını balanslaşdırır. Aparılmış elmi təhlillər nəticəsində aşağıdakı əsas nəticələr əldə edilmişdir:

Müasir cəmiyyətlərdə siyasi həyat dinamik və çoxşaxəli xarakter daşıyır; qloballaşma, rəqəmsal transformasiya və demokratik institutların inkişafı siyasi münasibətlərin məzmununu dəyişərək dəyərlərin rolunu daha da artırır.

Müasir demokratik proseslər siyasi sistemin sabitliyinin və davamlılığının əsasını təşkil edir və siyasi şüurun formalaşmasında mühüm rol oynayır.

Dəyər sosial fəlsəfənin fundamental kateqoriyası kimi həm ontoloji, həm də normativ xarakter daşıyır; o, sosial varlığın mühüm komponenti olmaqla yanaşı, siyasi münasibətlərin tənzimlənməsində əsas amil kimi çıxış edir.

Dəyərlər sistemi kompleks və çoxsəviyyəli struktura malik olub müxtəlif elmi sahələrin (fəlsəfə, politologiya, hüquq, etika və s.) kəsişməsində formalaşır və cəmiyyətin sosial-siyasi inkişafına birbaşa təsir göstərir.

Müasir şəraitdə dəyərlərin yenidən qiymətləndirilməsi prosesi baş verir; yeni sosial, siyasi və mədəni dəyərlər sistemi formalaşır və bu prosesdə milli və ümumbəşəri dəyərlərin vəhdəti xüsusi əhəmiyyət kəsb edir.

Siyasi sosiallaşma prosesində dəyərlər fərdin siyasi şüurunun formalaşmasına, siyasi davranışın istiqamətləndirilməsinə və siyasi seçimlərin müəyyənləşdirilməsinə birbaşa təsir edir. Fərd və cəmiyyət münasibətlərində uyğun model fərdi azadlıq ilə ictimai məsuliyyətin vəhdətinə əsaslanır; bu balans həm sosial sabitliyin, həm də siyasi inkişafın əsas şərtidir.

Mədəni və əxlaqi dəyərlər siyasi legitimliyin təmin olunmasında və siyasi sistemin sabitliyinin qorunmasında mühüm rol oynayır.

Milli-mənəvi dəyərlər dövlətçilik ənənələrinin qorunmasına, milli identikliyin möhkəmlənməsinə və ictimai həmrəyliyin təmin olunmasına xidmət edir; Azərbaycan kontekstində azərbaycançılıq bu baxımdan birləşdirici dəyər sistemi kimi çıxış edir.

Hüquqi dövlət quruculuğu müəyyən dəyərlər sisteminə əsaslanır; qanunun aliliyi, insan hüquqları, azadlıq və sosial ədalət kimi prinsiplər siyasi aksiologiyanın əsasını təşkil edir.

Ümumilikdə, belə qənaətə gəlmək olar ki, cəmiyyətin siyasi həyatında dəyərlər yalnız mənəvi kateqoriya kimi deyil, həm də sosial və siyasi münasibətlərin formalaşmasını təmin edən mühüm struktur elementidir. Dəyərlər siyasi sistemin legitimliyini təmin edir, siyasi sabitliyi möhkəmləndirir və vətəndaşların siyasi fəaliyyətini istiqamətləndirir və siyasi münasibətlərin mahiyyətinin daha dərindən dərk olunmasına imkan yaradır.

Beləliklə, aparılmış tədqiqat göstərir ki, cəmiyyətin siyasi həyatında dəyərlərin rolu çoxşaxəli və kompleks xarakter daşıyır. Müasir dövrdə siyasi sistemlərin sabit və səmərəli fəaliyyət göstərməsi üçün hüquqi və institusional mexanizmlərlə yanaşı, cəmiyyətin mənəvi və mədəni dəyərlərinin qorunması və inkişaf etdirilməsi də böyük əhəmiyyət kəsb edir. Bu baxımdan siyasi aksiologiyanın tədqiqi müasir sosial fəlsəfənin mühüm istiqamətlərindən biri kimi çıxış edir və gələcək elmi araşdırmalar üçün geniş perspektivlər açır.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Sosial-siyasi hadisə kimi multikulturalizm və xarici siyasət// Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, İctimai elmlər seriyası, № 6 (71), 2015, s.116-122
2. Müasir dövr və şəxsiyyətin siyasi fəallığı//Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, İctimai elmlər seriyası, № 6 (87), 2017, s.153-158
3. Fəlsəfənin tədrisində milli şüur probleminin təhlili təcrübəsindən // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, Cild 13, № 4,2017, s.26-30 (həmmüəllif: prof. M.Rzayev)
4. Sosial fəlsəfədə dəyər problemi//Monoqrafiya.Naxçıvan, Qeyrət, 2017, 100 s. (həmmüəllif:prof. M.Rzayev)
5. Siyasi həyatın formalaşmasında siyasi sistemin rolu// Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, İctimai elmlər seriyası, № 2 (91), 2018, s.190-195
6. Müasir qloballaşma şəraitində siyasi həyat // Gəncə Dövlət Universiteti, Elmi xəbərlər, Humanitar elmlər seriyası, № 3, 2018, s. 305-310
7. The role of the political system in the formation of political life: social philosophical aspect//«Гилея»: Науковийвисник, выпуск 137 (№10), 2018, Украйна, Киев, с.297-300
8. Sosial fəlsəfədə dəyər kateqoriyasının formaları haqqında // "Dövlət və Din" jurnalı. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, № 05 (58), 2018, s.44-51
9. Müasir qloballaşma şəraitində siyasi həyat//"Qafqazda dövlətlərarası münasibətlər:100 il əvvəl və müasir dövr" mövzusunda 23-24 may 2018-ci ildə AMEA Qafqazşünaslıq İnstitutunda keçirilmiş beynəlxalq elmi konfransın materialları. Bakı, 2018, s.313-316
10. Müasir demokratik proseslər şəraitində siyasi şüurun formalaşması // Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, İctimai elmlər seriyası. № 6 (95), 2018, s.121-126
11. Роль ценностей в политической социализации общества //Материалы конференции пров. 26-27октября 2018 года по теме «Актуальные научные исследования в

современном мире», Переяслав-Хмельницкий — Киев. Випуск (10) № 42, 2018, с.66-71

12. Siyasi həyat və dəyərlər//Dərs vəsaiti. Naxçıvan, Əcəmi, 2018, 96 s.

13.Взаимосвязь политической жизнии культурно нравственных ценностей // Содружество культур. Наманганский государственный университет. Международный сборник научных статей. Узбекистан, Тошкент, 2020, Выпуск 1, с.105-117

14. Siyasi həyata mənəvi-əxlaqi dəyərlərin təsiri//"Milli təhlükəsizliyin iqtisadi və sosial-mədəni aspektləri" mövzusunda 5 may 2020-ci ildə AƏSMA-da keçirilən beynəlxalq konfransın materialları. Bakı, 2020, s. 194-198

15. Qloballaşma və fəlsəfədə dəyər problemi// Mədəniyyətlərarası dialoqda bədii ədəbiyyatın rolu mövzusunda 4 dekabr 2018-ci ildə Sumqayıt Dövlət Universitetində keçirilmiş konfransın materialları. Bakı, 2020, s.304-305

16. Milli dəyərlər siyasi münasibətlər müstəvisində// İdarəetmədə multikultural dəyərlər mövzusunda 25 noyabr 2020-ci ildə ATMU-da keçirilmiş beynəlxalq elmi konfransın materialları. Bakı, 2020, s.53-58

17. Fəlsəfə tarixində dəyər probleminə baxış // "Rəqəmsal iqtisadiyyat: Azərbaycan yeni iqtisadi inkişaf mərhələsində" mövzusunda 25 noyabr 2020-ci ildə BBU-da keçirilmiş beynəlxalq elmi konfransın materialları, Bakı, 2020, s.437-439

18. Sosial fəlsəfədə siyasi şüur kateqoriyası haqqında //Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, İctimai elmlər seriyası. № 2(103),2020,s.93-98

19. Hüquqi dövlət quruculuğu prosesi və siyasi aksiologiya // Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, İctimai elmlər seriyası. № 6 (107), 2020, s.39-45

20. Sosial ədalət və azadlıq kateqoriyaları siyasi aksiologiya aspektində // AƏSMA , Elmi-praktiki jurnal,№1(15) 2021.s.17-24

21. Milli dəyərlər və siyasi münasibətlər// Pandemiyanın dünya ölkələrinin sosial–iqtisadi inkişafına təsiri problemləri möv-

zusunda 31may 2021 –ci ildə AƏSMA-da keçirilmiş beynəlxalq elmi konfransın materialları, Bakı, 2021, s.272-274

22. Nizami Gəncəvi yaradıcılığında əxlaqi dəyərlər//“Nizami Gəncəvi “Xəmsə”sinin şərq, qərb ədəbi-mədəni əlaqələri sistemində yeri və yaratdığı yeni istiqamətlər” mövzusunda 25-27 noyabr 2021–ci ildə AMEA Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilmiş beynəlxalq elmi konfransın materialları, Bakı, Azərbaycan, 2021, s. 172-175

23. Azadlıq fenomenin sosimədəni təbiəti //Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar beynəlxalq elmi konfransın materialları, Mingəçevir, Azərbaycan, 16-17 dekabr 2022, s. 469-473

24. The role of the Jews in the history of Azerbaijan, The Heritage and culture of the Jews in the North and East Caucasus International Conference, Baku, Azerbaijan, 30-31 August, 2023, p 39-41

25. Siyasət və əxlaqın qarşılıqlı təsiri, Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş modernləşmənin prioritet istiqamətləri: sosiomədəni və iqtisadi-ekoloji aspektlər mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, Azərbaycan, 6 may 2022, s.322-327

26. İnsanın sosiallaşmasına təsir edən amillər, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusudur beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, Azərbaycan, 05 may 2023, s.237-241

27. İpək yolu ölkələrində siyasi sosiallaşma, I İpəkyolu konfransı-Naxçıvan beynəlxalq elmi konfransın materialları, Bakı, Azərbaycan , 26-27 may 2023, s.1038-1044

28. Müasir siyasi həyat və mədəni-əxlaqi dəyərlərin qarşılıqlı əlaqəsi. Azərbaycan fəlsəfi fikir tarixinə müasir baxış respublika – elmi konfransı, Naxçıvan, Azərbaycan, 21 iyun 2023, s. 229-233

29. Yeni Dünya Düzeni Ve Değişen Değerler, 11-ci EMI Sahibkarlıq və Sosial Elmlər İstanbul beynəlxalq elmi konfransının materialları, İstanbul, Türkiyə, 31 iyul - 3 avqust 2025, s 864-869

30.Dijitalleşme ve Sosyal Medyanın Toplumsal Etkileri, "İqtisadiyyat və Sosial Elmlər" mövzusunda Balıkesir Universitetində keçirilmiş beynəlxalq elmi konfransın materialları, Balikesir, Türkiyə, 17-19 oktyabr 2025, s. 453-459

31. Globalization and the problem of different identities, Eurasian Conference on Language & Social Sciences, Paris France, December 13-14, 2025, p.352-357

32. Artificial intelligence and the design of politics in the modern world, Acta Globalis Humanitatis et Linguarum, Vilnus Lithuania, January 20.2026, p. 06-18

33. Social justice and inequality in education: A theoretical and social analysis, Qədim Diyar beynəlxalq elmi jurnal, Bakı Azərbaycan, 29 yanvar 2026, s .63-68

34. Digital Socialization and the Loneliness Epidemic, Eurasian Conference on Language & Social Sciences, Bucharest, Romania, 6 february 2026, p.380-391

35. The Concept and Essence of Digital Transformation, American Journal of Social and Humanitarian Research, Houston, USA, 14 march 2026, 7(3), P.116-122

36. Human Choices, Freedom, and Responsibility: A Philosophical Perspective, IKR Journal of Arts, Humanities and Social Sciences (IKRJAHSS), Vol.2, N-2, Hojai,India, 24.03.2026, p.73-79

Dissertasiyanın müdafiəsi 21 May 2026 ci il tarixində saat 11.00 Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan : Bakı, Az-1143, Hüseyn Cavid prospekti, 115, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun Elmi kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi elektron saytında yerləşdirilmişdir.

Avtoreferat 17 Aprel 2026-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.04.2026
Kağızın formatı:A5
Həcm:42692
Tiraj:100